Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:

_______________dos. Zaur Məmmədov
"05" "01" 2026-cı il

Fənn sillabusu
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** Biznesin idarə edilməsi (Sosial xidmət sahələri üzrə)
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

## I.Fənn haqqında məlumat:

Fənnin adı: S/f (Sosial xidmətlər sahəsi üzrə maliyyə xidmətinin təşkili) (İşçi proqramı LDU "Maliyyə idarəetməsi və audit" kafedrası. 05.01.2026, prot №08)
Kodu: ACCTG 502
Tədris ili: II (2025/2026).
Semestr: IV (Yaz)
Tədris yükü:Cəmi: 225 saat. Auditoriya saatı – 30 saat (30 saat məşğələ).
Təhsilalma forması: Əyani
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 7

## II.Müəllim haqqında məlumat:

Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Bədəlov Əlixan Mehman oğlu, iqt.e.n, dos.
Məsləhət günləri: IV-V gün saat $16^{00}$-$17^{00}$
E-mail ünvanı: alixan.badalov@mail.ru
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

## III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:

**Əsas:**


1. Dünyamalıyeva L. Sosial siyasət və sosial xidmətlərin maliyyələşdirilməsi. Bakı: "Elm və Təhsil". 2017
2. Məmmədov İ. İctimai maliyyə və sosial xidmətlər. Bakı: "Şərq-Qərb". 2019
3. Saleh Məmmədov Rəqəmsal Maliyyə. Dərs vəsaiti. Bakı-Gəncə: 2022

Əlavə ədəbiyyat

4. Финансы. : учебник / Л. Л. Игонина, М. В. Радченко, Э. В. Соболев [и др.] ; под ред. Л. Л. Игониной. КноРус, 2023. — 384 с.
5. Финансы : учебник и практикум для вузов / Н. И. Берзон [и др.] ; под общей редакцией Н. И. Берзона. — 4-е изд., перераб. и доп. — Москва : Издательство Юрайт, 2024. — 541 с. — (Высшее образование).
6. Финансы : учебник для вузов / под редакцией И. Ю. Евстафьевой, Д. А. Жилюка, Н. Г. Ивановой. — 2-е изд., перераб. и доп. — Москва : Издательство Юрайт, 2025. — 448 с.
7. Общественные финансы : учебное пособие / Т. М. Ковалёва, А. Г. Глухова, Е. Е. Дождева [и др.] ; под ред. Т. М. Ковалевой. — Москва : КноРус, 2023. — 229 с.
8. Социальные финансовые технологии развития предприятий и экономики России. учебник / Е. В. Соколов, Е. В. Костырин, К. В. Руднев и др. – М.: Издательский дом «НАУЧНАЯ БИБЛИОТЕКА», 2023. – 306 с.
9. Храпылина Любовь Петровна, Марголин Андрей Маркович, Пузин Сергей СергеевичОсновы социальной поддержки социального обслуживания населения. Дело (РАНХиГС), 2025. -– 186 с.


CamScanner ile tarandı

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən hər hansı bir fənnin tədrisinə ehtiyac yoxdur.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənnlərin də tədris olunmasına zərurət yoxdur.

**VI.Fənnin təsviri və məqsədi:** "Sosial xidmətlər sahəsi üzrə maliyyə xidmətinin təşkili" fənni sosial xidmətlər sahəsində maliyyə münasibətlərinin mahiyyəti, maliyyə xidmətlərinin təşkili mexanizmləri və onların idarə olunması prinsiplərinin öyrənilməsinə həsr olunmuşdur. Fənn tələbələrdə sosial yönümlü sahələrdə maliyyə resurslarının formalaşdırılması, bölüşdürülməsi və səmərəli istifadəsi üzrə nəzəri biliklər və praktiki bacarıqlar formalaşdırır.
"Sosial xidmətlər sahəsi üzrə maliyyə xidmətinin təşkili" fənninin məqsədi tələbələrdə sosial xidmətlər sahəsində maliyyə münasibətlərinin mahiyyəti, maliyyə xidmətlərinin təşkili və idarə olunması üzrə nəzəri biliklər və praktiki bacarıqlar formalaşdırmaqdır.
Fənn dövlətin sosial və maliyyə siyasəti çərçivəsində sosial xidmətlərin maliyyə təminatı mexanizmlərinin öyrənilməsini, pensiya və sosial sığorta sistemlərinin, müavinət və sosial ödənişlərin təşkili qaydalarının mənimsədilməsini, eləcə də rəqəmsal maliyyə və bank xidmətlərindən səmərəli istifadə bacarıqlarının aşılanmasını hədəfləyir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə magistrlərin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir. Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - magistr keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - magistr keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - magistr cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - magistr keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal – magistrin cavabı əsasən düzgündür;
- 5 bal - magistrin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - magistrin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - magistrin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - magistrin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

CamScanner ile tarandı

Magistrın imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə magistrın imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**
Magistr Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir .

**X. Təqvim mövzu planı:**
Cəmi 30 saat. Məşğələ - 30 saat.

| № | Tədris olunan mövzuların məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | | Məşğələ | |
| 1. | **Mövzu:** Maliyyə və sosial xidmətlər sahəsi üzrə onun təşkilinin əsasları<br>Plan:<br>1. Maliyyə və maliyyə münasibətləri<br>2. Maliyyənin funksiyaları və zəruriliyi<br>3. Maliyyə resursları<br>4. Maliyyə xidmətlərinin mahiyyəti<br>5. Sosial xidmətin mahiyyəti və məqsədi<br>6. Sosial xidmətin formaları və növləri<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 2. | **Mövzu:** Maliyyə siyasəti və sosial xidmətlər sahəsi üzrə əsas istiqamətləri<br>Plan:<br>1. Maliyyə siyasətinin mahiyyəti<br>2. Dövlətin maliyyə siyasətinin məzmunu<br>3. Sosial xidmətlər sahəsi üzrə müəssisələrin maliyyə siyasəti, onun hazırlanması və əsas istiqamətləri<br>4. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün "Dövlət Proqramı" nın məqsədləri və prioritet istiqamətləri<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 3. | **Mövzu:** Dövlətin sosial siyasəti və onun əsas istiqamətləri<br>Plan :<br>1. Sosial siyasətin mahiyyəti<br>2. Dövlətin sosial siyasətinin mahiyyəti və formalaşması<br>3. Sosial siyasətin əsas prinsipləri və istiqamətləri<br>4. Həyat səviyyəsinin yüksəldilməsi<br>5. Dövlətin sosial siyasət strategiyası<br>6. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi | 4 | |

CamScanner ile tarandı

| | | | |
|---|---|---|---|
| | istiqamətləri<br>Mənbə: [Mühazirə materialları, 1-9] | | |
| 4. | **Mövzu:** Pensiya xidmətinin təşkili və onun maliyyə təminatı<br>Plan:<br>1. Pensiya haqqında ümumi anlayış və yaşa görə əmək pensiyası<br>2. Əlilliyə görə əmək pensiyası<br>3. Ailə başçısını itirməyə görə əmək pensiyası<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 5. | **Mövzu:** Sosial sığorta əsaslı müavinətlər<br>Plan:<br>1. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət<br>2. Hamiləliyə və doğuma görə müavinət<br>3. Uşağın anadan olmasına görə müavinət<br>4. Dəfn üçün müavinət<br>5. Şəhid ailəsinin imtiyaz və sosial təminatı<br>6. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə maliyyə dəstəyi<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 6. | **Mövzu:** Sosial xidmətlər sahəsi üzrə rəqəmsal maliyyənin təşkili<br>Plan:<br>1. Rəqəmsal maliyyə xidməti anlayışı<br>2. Rəqəmsal maliyyənin əsas məqsədi və təşkili vasitələri<br>3. Rəqəmsal maliyyənin üstünlükləri<br>4. Elektron puldan istifadənin üstünlükləri və çatışmazlıqları<br>5. Kredit kartların meyarlara görə təsnifatı<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 7. | **Mövzu:** Sosial xidmətlər sahəsi üzrə rəqəmsal bankçılıqda əsas xidmətlərin təşkili<br>Plan:<br>1. Elektron bankçılıq vasitəsilə müştərilərə göstərilən əsas xidmətlər<br>2. Sürətli pul köçürmələrinin təşkili<br>3. Rəqəmsal bank xidmətində bankomatlarla işin təşkili<br>4. POS-terminalla işin təşkili<br>5. Rəqəmsal bankçılıqda Elektron (rəqəmsal) hökümət xidmətinin təşkili<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 4 | |
| 8. | **Mövzu:** Təhsil və tibbi xidmət sahələri üzrə maliyyə xidmətinin təşkili<br>Plan:<br>1. Təhsil xidmətinin mahiyyəti, gəlirləri və xərcləri<br>2. Pullu tibbi xidmətlərin xüsussiyyətləri, onların sosial kompleks sahələrinin inkişafında rolu<br>3. Pullu tibbi xidmət göstərilməsi ilə əlaqədar gəlirlərin, xərclərin və maliyyə nəticələrinin mühasibat uçotunda əks etdirilməsi<br>4. Maliyyə münasibətlərində tibbi xidmətlər göstərilməsinə çəkilən xərclərin uçotunun təşkili və maya dəyərinin kalkulyasiyası<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 2 | |
| | Cəmi: | 30 | |

**XI. Fənn üzrə tələblər və tapşırıqlar:**

Fənn üzrə tələblər:

- Mühazirə və məşğələlərdə müntəzəm iştirak etmək;
- Mövzular üzrə mühazirə materiallarını mənimsəmək;

CamScanner ile tarandı

- Maliyyə və sosial xidmətlərə dair əsas anlayış və terminləri bilmək;
- Verilmiş tapşırıqları vaxtında yerinə yetirmək;
- Cari və yekun qiymətləndirmələrdə iştirak etmək.

Fənn üzrə tapşırıqlar:
- Mövzular üzrə sərbəst iş və təqdimatların hazırlanması;
- Sosial xidmətlər sahəsinə aid maliyyə planlarının işlənməsi;
- Pensiya və sosial sığorta sistemlərinin hesablamalarının aparılması;
- Rəqəmsal maliyyə və bank xidmətləri ilə bağlı praktiki tapşırıqların yerinə yetirilməsi;
- Cari və yekun qiymətləndirmə tapşırıqlarında iştirak etmək.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
- mühazirə, seminar, praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma.

**XIII. Fənn üzrə təlimin nəticələri:** Tələbə sosial xidmətlər sahəsində maliyyə və dövlət siyasətinin əsaslarını, pensiya və sosial sığorta xidmətlərini, rəqəmsal maliyyə və bankçılıq xidmətlərini, həmçinin təhsil və tibbi xidmətlərin maliyyə təşkili prinsiplərini anlayır, təhlil edir və tətbiq edir.

**Magistrant:**
- Maliyyə və maliyyə münasibətləri haqqında biliklər əldə edir;
- Maliyyə və sosial xidmətin mahiyyəti və məqsədini öyrənir;
- Sosial xidmətin formaları və növləri haqqında biliklər əldə edir;
- Sosial xidmətlər sahəsi üzrə müəssisələrin maliyyə siyasəti, onun hazırlanmasının əsas istiqamətlərini öyrənir;
- Dövlətin sosial siyasət strategiyası haqqında biliklər əldə edir;
- Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri haqqında biliklər əldə edir;
- Sosial xidmətlər sahəsi üzrə rəqəmsal maliyyə xidmətinin təşkili ilə bağlı biliklərə yiyələnir;
- Sosial xidmətlər sahəsi üzrə elektron bankçılıq vasitəsilə müştərilərə göstərilən əsas xidmətlər haqqında biliklər əldə edir və s.

**XIV. Magistrlərin fənn haqqında fikrinin öyrənilməsi:** ____________________

____________________________________________

**XV. Kollokvium sualları:**

**I Kollokvium sualları:**

1. Maliyyə və maliyyə münasibətləri
2. Maliyyənin funksiyaları və zəruriliyi
3. Maliyyə resursları
4. Maliyyə xidmətlərinin mahiyyəti
5. Sosial xidmətin mahiyyəti və məqsədi
6. Sosial xidmətin formaları və növləri
7. Maliyyə siyasətinin mahiyyəti
8. Dövlətin maliyyə siyasətinin məzmunu
9. Sosial xidmətlər sahəsi üzrə müəssisələrin maliyyə siyasəti, onun hazırlanması və əsas istiqamətləri
10. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün "Dövlət Proqramı" nın məqsədləri və prioritet istiqamətləri

**II Kollokvium sualları:**

1. Dövlətin sosial siyasətinin mahiyyəti və formalaşması
2. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri
3. Pensiya haqqında ümumi anlayış və yaşa görə əmək pensiyası
4. Əlilliyə görə əmək pensiyası

CamScanner ile tarandı

5. Ailə başçısını itirməyə görə əmək pensiyası
6. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət
7. Şəhid ailəsinin imtiyaz və sosial təminatı
8. Rəqəmsal maliyyə xidməti anlayışı
9. Rəqəmsal maliyyənin əsas məqsədi və təşkili vasitələri
10. Elektron bankçılıq vasitəsilə müştərilərə göstərilən əsas xidmətlər

**XVI. İmtahan sualları:**

1. Maliyyə və maliyyə münasibətləri
2. Maliyyənin funksiyaları və zəruriliyi
3. Maliyyə resursları
4. Maliyyə xidmətlərinin mahiyyəti
5. Sosial xidmətin mahiyyəti və məqsədi
6. Sosial xidmətin formaları və növləri
7. Maliyyə siyasətinin mahiyyəti
8. Dövlətin maliyyə siyasətinin məzmunu
9. Sosial xidmətlər sahəsi üzrə müəssisələrin maliyyə siyasəti, onun hazırlanması və əsas istiqamətləri
10. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün "Dövlət Proqramı" nın məqsədləri və prioritet istiqamətləri
11. Sosial siyasətin mahiyyəti
12. Dövlətin sosial siyasətinin mahiyyəti və formalaşması
13. Sosial siyasətin əsas prinsipləri və istiqamətləri
14. Həyat səviyyəsinin yüksəldilməsi
15. Dövlətin sosial siyasət strategiyası
16. Sosial siyasətin maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi istiqamətləri
17. Pensiya haqqında ümumi anlayış və yaşa görə əmək pensiyası
18. Əlilliyə görə əmək pensiyası
19. Ailə başçısını itirməyə görə əmək pensiyası
20. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət
21. Hamiləliyə və doğuma görə müavinət
22. Uşağın anadan olmasına görə müavinət
23. Dəfn üçün müavinət
24. Şəhid ailəsinin imtiyaz və sosial təminatı
25. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə maliyyə dəstəyi
26. Rəqəmsal maliyyə xidməti anlayışı
27. Rəqəmsal maliyyənin əsas məqsədi və təşkili vasitələri
28. Rəqəmsal maliyyənin üstünlükləri
29. Elektron puldan istifadənin üstünlükləri və çatışmazlıqları
30. Kredit kartların meyarlara görə təsnifatı
31. Elektron bankçılıq vasitəsilə müştərilərə göstərilən əsas xidmətlər
32. Sürətli pul köçürmələrinin təşkili
33. Rəqəmsal bank xidmətində bankomatlarla işin təşkili
34. POS-terminalla işin təşkili
35. Rəqəmsal bankçılıqda Elektron (rəqəmsal) hökümət xidmətinin təşkili
36. Təhsil xidmətinin mahiyyəti, gəlirləri və xərcləri
37. Pullu tibbi xidmətlərin xüsussiyyətləri, onların sosial kompleks sahələrinin inkişafında rolu
38. Pullu tibbi xidmət göstərilməsi ilə əlaqədaı gəlirlərin, xərclərin və maliyyə nəticələrinin mühasibat uçotunda əks etdirilməsi
39. Maliyyə münasibətlərində tibbi xidmətlər göstərilməsinə çəkilən xərclərin uçotunun təşkili və maya dəyərinin kalkulyasiyası

CamScanner ile tarandı

S/f (Sosial xidmətlər sahəsi üzrə maliyyə xidmətinin təşkili) fənninin sillabusu Biznesin idarə edilməsi (Sosial xidmət sahələri üzrə) ixtisasının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabuş "Maliyyə idareetməsi və audit" kafedrasında müzakirə edilərək, təsdiq olunmuşdur (05. 01. 2026-cı il "08" saylı iclas protokolu).

Fənn müəllimi: dos. Əlixan Bədəlov

Kafedra müdiri: dos. Əlixan Bədəlov

CamScanner ile tarandı